**UOT 022.9 (479.24)+94 (479.24)-057.17**
**KBT Ч738.3 (2A)+T3 (2A)7-8**

# Ümummilli lider Heydər Əliyev haqqında internetdə istifadə olunan elektron resursların şərhi

**M.Ə.Vəliyeva**
diyarsunas@anl.az

**Xülasə:** *Məqalədə Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası, Heydər Əliyev Fondu, Heydər Əliyev İrsini Araşdırma Mərkəzi, Azərbaycan Respublikasının Milli Məclisi, Azərbaycan Milli Kitabxanasının saytlarında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin həyat və fəaliyyəti, ömür yolu və s. haqda elektron resurslar təhlil edilmişdir.*

**Açar sözlər:** *Heydər Əliyev, Heydər Əliyev İrsini Araşdırma Mərkəzi, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası, Heydər Əliyev Fondu, Azərbaycan Respublikasının Milli Məclisi, Azərbaycan Milli Kitabxanası*

**Ключевые слова:** *Гейдар Алиев,Центр Исследований наследия Гейдара Алиева, Управление Делами Президента Азербайджанской Республили Президентская Библиотека, Фонд Гейдара Алиева, Милли Меджлис Азербайджанской Республики, Национальная Библиотека Азербайджана*

**Key words:** *Heydar Aliyev, Heydar Aliyev Heritage Research Center, Administrative Department of the Prezident of the Respublic of Azerbayjan Presidential Library, Heydar Aliyev Foundation, Azerbaijcan National Meclis, Azerbaijcan National Library*

"Dahi Heydər Əliyev şəxsiyyətinin Azərbaycan dövlətçilik tarixində müstəsna yeri vardır. Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı kimi Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olmuşdur. Məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan özünün geostrateji, iqtisadi və mədəni potensialından istifadə edərək Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynamağa başlamış və dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilmişdir" [1].

Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin həyat və fəaliyyəti, ömür yolu hər bir azərbaycanlı, hər bir dövlət xadimi üçün örnəkdir. Həyatı boyu öz xalqına sədaqətlə xidmət etmiş Heydər Əliyev 35 ilə yaxın hakimiyyətdə olmuş, Azərbaycanın ictimai-siyasi, iqtisadi, elmi və mədəni həyatının bütün sahələrinin dirçəlişi uğrunda daim fəaliyyət göstərmiş və dövlətimizi dünya ölkələrinə tanıdan dahi şəxsiyyətdir.

Ümummilli lider Heydər Əliyevin əsəri olan Müstəqil Azərbaycanda "elektron hökumət" layihəsi "Elektron Azərbaycan" dövlət proqramı çərçivəsində həyata keçirilir.

Yeni informasiya texnologiyasının inkişafı və kitabxanalarda onların tətbiq edilməsi informasiyanın istifadəçilərə maşınla oxunan formada operativ, tam, uzaq məsafədən çatdırılması baxımından çox önəmlidir.

Kitabxana fəaliyyətinin prioritet istiqamətlərindən biri də biblioqrafik vəsaitlərin tərtib olunmasıdır. Kitabxanada olan keyfiyyətli resurs bazaları və dəqiq təşkil olunmuş məlumat-biblioqrafiya aparatı elmi-köməkçi biblioqrafik göstəricilərin, elektron biblioqrafik göstəricilərinin, elektron kataloq, elektron kitabxana, tammətnli məlumat bazaları, həmçinin İnternetdə olan elmi resurslar şəbəkəsinin yaradılması üçün əsas mənbə hesab olunur.

Kitabxanalarda yaradılan elektron resurslar ümumi ideyanı özündə birləşdirənWeb-sənədlərdən ibarətdir. Web-serverin strukturunu yaradarkən əsasən onun ənənəvi və tipik kitab şəklində olmasınınəzərə almaq lazımdır. Bu struktur resursların bölmə və yarımbölmələrin, həmçinin qiperisnadların dəqiq bölünməsinə kömək edir. Elektron resursların, biblioqrafiyaların bölmələrindən istifadə üçün İnternet Explorer, Microsoft kompaniyasının Windows əməliyyat sistemindən istifadə etmək lazımdır.

Ümummilli lider Heydər Əliyevin irsini təbliğ etmək baxımından onun həyat yolunu əks etdirən 30-a yaxın elektron resursa baxılmış, onlardan 6 ən sanballı sayt seçilib şərh olunmuşdur. Saytlardakı materiallar Azərbaycan, rus və ingilis dillərindədir.

Bu saytlar aşağıdakılardır:

**Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası**

http://heydaraliyev.preslib.az.

Kitabxana 2003-cü ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Bakı şəhərinin iki qocaman kitabxanasının – Mərkəzi şəhər kitabxanasının (keçmiş Lenin adına kitabxana) və Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin nəzdində olan kitabxananın (keçmiş Siyasi Maarif Evinin kitabxanası) bazasında yaradılıb. Mərkəzin əsas vəzifələrindən biri Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının, mərkəzi və yerli icra hakimiyyəti or-

qanlarının əməkdaşlarına, humanitar elm sahələrində çalışan tədqiqatçılara kitabxana-biblioqrafiya və informasiya xidməti göstərməkdir.

Kitabxananın vebsaytının ana səhifəsində "Heydər Əliyev. Elektron Sənədlər Toplusu" adlı İnternet resursda Ümummilli liderin zəngin irsini əks etdirən materiallar toplanmışdır. Aktiv olan bu bölmədə istifadəçi aşağıdakı informasiyaları əldə edə bilər:

***Elektron Sənədlər toplusu***

- Ümummilli lider;
- Xronologiya (1923-2003);
- Nitqləri, çıxışları, məruzələri, müsahibələri, bəyanatları;
- Xarici siyasət fəaliyyətinin xronologiyası (1993-2003);
- Heydər Əliyev haqqında elektron kitablar və məqalələr;
- Müstəqilliyimiz əbədidir. Elektron külliyyat;
- Məşhur adamlar H. Əliyev haqqında;
- Biblioqrafiya;
- Fotoqalereya.

"Heydər Əliyev. Elektron sənədlər toplusu" vaxtaşırı yeni materiallarla zənginləşdirərək istifadəçilərin ixtiyarına vermişdir. "Ümummilli lider" bölməsində Heydər Əliyevin Bioqrafiyası, Rəhbərlik illəri, Təltifləri, Seçilmiş fikirləri, Xatirəsinin əbədiləşdirilməsi adlı yarımbölmələr verilmişdir.

Elektron resursun "Xronologiya" fəslinin"Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin həyat və fəaliyyətinin xronologiyası" yarımbölməsində H.Əliyevin həyat və fəaliyyətinin əsas tarixləri, əlamətdar günləri xronologiya üzrə (1923-2003) qruplaşdırılmışdır. Elektron resursun "Nitqləri, çıxışları, məruzələri, müsahibələri, bəyanatları" fəslinə Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi olduğu dövrdə etdiyi çıxışlarından, məruzələrindən və müsahibələrindən seçmə materiallar, həmçinin, onun fəaliyyətinin 1990-1993-cü illər Naxçıvan dövrünü, bu dahi şəxsiyyətin xalqın istəyi və xahişi ilə yenidən ölkə rəhbərliyinə gəldiyi 1993-cü ilin iyunundan 2003-cü illərdəki dövrünü özündə əks etdirən müsahibələri, çıxışları, məruzələri, bəyanatları və müraciətləri ayrıca bölmələr şəkilində əlavə edilmişdir.

Elektron resurs Heydər Əliyev haqqında son dövrdə müxtəlif dillərdə çap olunan kitabların elektron versiyaları ilə zənginləşdirilmişdir. Kitabların elektron variantına "Elektron kitablar" Verilənlər bazasında (http://www.ebooks.az/) baxa bilərsiniz. Kitabxananın fonduna daxil olan qəzet və jurnallarda Heydər Əliyev haqqında dərc edilən analitik və təhlili məqalələrin elektron versiyaları da yeni bölmə kimi "E-məqalələr" resursa əlavə edilmişdir. Burada-

kı materiallar xponologiya üzrə (2004-2015) tammətinlə yerləşdirilmişdir. "Müstəqilliyimiz əbədidir. Elektron külliyyat" bölməsində Azərbaycan Respublikasının Prezidenti Heydər Əlirza oğlu Əliyevin çoxcildlik əsərlərinin birinci cildindən qırx altıncı cildinə qədər dahi şəxsiyyətin 1993-cü ilin iyunundan 2003-cü ilə qədərki dövrdəki çıxışları, nitqləri, bəyanatları, müraciətləri, müsahibələri və s. toplanmışdır. "Məşhur adamlar H.Əliyev haqqında" bölməsində görkəmli dövlət və ictimai xadimlərinin, siyasətçilərin, görkəmli şəxsiyyətlərin ümummilli lider haqqında fikirləri toplanmışdır. Resursun "Biblioqrafiya" fəsli Kitablar, Avtoreferatlar, Məqalələr – bölməsinə ayrılmışdır. Kitablar bölməsində Heydər Əliyevin Azərbaycvan, rus və xarici dillərdə cap olunan kitabları və haqqında nəşr olunan kitablar yerləşdirilmişdir. "Avtoreferatlar" bölməsində Heydər Əliyevin həyat və fəaliyyətinə həsr edilmiş dissertasiyaların avtoreferatlarının siyahısı, "Məqalələr" bölməsində isə 2004-2015-ci illərdə dövri mətbuatda cap olunan məqalələrin biblioqrafiyası toplanmışdır. "Fotoqalereya" bölməsində Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən "Fotoalbom" və şəxsi sənədlərinin fotosurətini əks etdirən "Fotosənəd" yarımbölmələri verilmişdir.

Saytın ana səhifəsinin aşağısında "Heydər Əliyev" banneri vasitəsilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 29 dekabr 2006-cı il tarixli Sərəncamına əsasən Bakıda yaradılan Heydər Əliyev Mərkəzinə birbaşa keçid verilmişdir. Mərkəzin saytında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsi və azərbaycançılıq məfkurəsinin öyrənilməsi, Heydər Əliyev irsinin tədqiqi və təbliği, elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekologiya və iqtisadiyyatın inkişaf etdirilməsinə xidmət edən layihələrin həyata keçirilməsi, Azərbaycan tarixi və mədəniyyətinin, Azərbaycan dilinin və digər milli-mənəvi sərvətlərinin beynəlxalq aləmdə tanıdılması və təbliği, eləcə də dünya mədəniyyətinin, müxtəlif sivilizasiya nümunələrinin Azərbaycanda tanıdılması, yerli, regional və beynəlxalq konfrans, simpozium və digər tədbirlərin keçirilməsi istiqamətində fəaliyyəti barədə geniş məlumatlar tapmaq olar.

**Heydər Əliyev Fondu**

www.heydar-aliyev-foundation.org

Heydər Əliyev Fondu 2004-cü ildə ulu öndərin siyasi irsini öyrənmək, onu təhlil, təbliğ etmək, yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daim aşılamaq niyyətindən irəli gələrək yaradılmışdır. Fond öz fəaliyyəti ilə Azərbaycanın ictimai həyatında böyük rol oynamış, qarşıya qoyduğu məqsədləri uğurla həyata keçirmişdir.

Heydər Əliyev Fondunun hazırladığı saytın ana səhifəsində - "Heydər Əliyev" linki verilmişdir. Bu link vasitəsi ilə istifadəçilər Heydər Əliyev haqqında çox geniş, sanballı məlumatlarla tanış ola bilərlər:

- Bioqrafiya
- Dünya Heydər Əliyev haqqında
- Müdrik fikirlər
- Heydər Əliyev Mərkəzi
- Qalereya

Linkin ana səhifəsi Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin xatirəsinin əbədiləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanından bir hissə ilə açılmışdır. Bioqrafiya bölməsində ümummilli liderin tərcümeyi-halı yerləşdirilmişdir.

"Dünya Heydər Əliyev haqqında" bölməsində dünyanın məşhur dövlət xadimlərinin ümummilli lideri haqqında deyimləri verilmişdir.Burada **Rusiya Federasiyasının Prezidenti Vladimir Putin**, **Amerika Birləşmiş Ştatlarının** 43-cü prezidenti Corc Buş, Fransa Respublikasının 22-ci Prezidenti Jak Şirak, **Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin Heydər Əliyev haqqında fikirləri öz əksini tapmışdır. "Müdrik fikirlər" bölməsində Heydər Əliyevin müdrik fikirləri verilmişdir.** "Heydər Əliyev Mərkəzi" bölməsində Mərkəzin fəaliyyəti barədə informasiya yerləşdirilmişdir. "Qalereya" bölməsində Heydər Əliyevin fotoşəkilləri "Rəhbər", "Prezident", "Görüşlər", "Müxtəlif" və "Ailə" başlığı ilə qruplaşdırılmışdır.

**Heydər Əliyev İrsini Araşdırma Mərkəzi**

http://aliyevheritage.org/az/default.html

Azərbaycanın tarixi inkişaf prosesinə təkan verən ümummilli liderimiz Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin qurucusu kimi hər bir azərbaycanlının taleyində müstəsna rol oynamışdır. Bu böyük şəxsiyyətin zəngin irsinin dərindən və hərtərəfli öyrənilməsi müstəsna əhəmiyyətə malikdir.

Heydər Əliyev İrsini Araşdırma Mərkəzi məhz bu işlə - Azərbaycan xalqının ümummilli liderinin irsinin öyrənilməsi və təbliği ilə məşğul olan qurumdur.

Heydər Əliyev İrsini Araşdırma Mərkəzi 10 may 2004-cü ildən etibarən ümummilli liderimizin zəngin irsini – çıxışları, müsahibələri, görüşləri, bəyanatları və məktublarının mətnlərini 50 dildə geniş auditoriyaya təqdim edən "Heydər Əliyev irsi" Beynəlxalq Elektron Kitabxanasının əsasında yaradılmışdır. Heydər Əliyev İrsini Araşdırma Mərkəzi "Heydər Əliyev irsi" Beynəlxalq Elektron Kitabxanası, Azərbaycanın müxtəlif bölgələrində fəaliyyət göstərən regional bürolar, siyasətçilər, politoloqlar, diplomatlar və tarixçilər üçün ən müxtəlif dillərdə kitablar nəşr edən nəşriyyat qrupundan ibarətdir. Mərkəz həmçinin, orijinal tədris proqramları əsasında gənc müəllimlər, ali məktəblərin magistrantları və tələbələri üçün "Heydər Əliyev irsini öyrənirik" interaktiv kursları və yay məktəbləri təşkil edir, eləcə də planetin mühüm elmi mərkəzləri ilə internet körpülər yaradır.

Heydər Əliyev İrsini Araşdırma Mərkəzinin portalı gündəlik olaraq yeniləşir, zənginləşir.

Heydər Əliyevin əsərlərinin müxtəlif dillərdə nəşri politoloqlar, iqtisadçılar, jurnalistlər və Azərbaycanın ən yeni tarixi və inkişafı, keçmişi və gələcəyi ilə maraqlanan bütün insanlar üçün faydalıdır.

Saytın ana səhifənin sol tərəfində "Mərkəz" linki yerləşdirilmişdir. Bu link aşağıdakı bölmələrə ayrılmışdır: Böyük liderin 90 anı; Ümummilli lider; Fəaliyyətimiz; Azərbaycan prezidenti; Tərcümə laboratoriyası; Haqqımızda; Portal haqqında; Mərkəzin xəritəsi; Fotoqalereya. Heydər Əliyev İrsini Araşdırma Mərkəzi bu linkin müvafiq bölmələrində əsasən H.Əliyev haqqında məqalələr, mərkəzin fəaliyyəti, burada cap olunana kitablar, keçirilən tədbirlər haqqında geniş informasiyalar toplanmışdır.

Saytın ana səhifənin sağ tərəfində "Kitabxana" linki yerləşdirilmişdir. Bu link aşağıdakı bölmələrə ayrılmışdır: Oxuculara müraciət; Tərcümeyi-hal; Əsərləri; Məlumat-soraq materialları; Tarixi arayışlar; Dünya mətbuatı Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin səfərləri haqqında; Məşhurlar Heydər Əliyev haqqında; Əlavə sənədlər; Oçerklər; Video-blok; Xəritə və qrafiklər; Əlamətdar tarixlər; Kitabxananın xəritəsi.

Lakin "Əsərləri" bölməsində Heydər Əliyevin əsərləri - Proqram çıxışları; Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi; Neft strateqiyası; Daxili siyasət; Xarici siyasət; Mədəniyyət; İqtisadiyyat; Diaspor; Din; Ordu quruculuğu; Beynəlxalq terrorizmə qarşı mübarizə; Sosium; Müsahibələr; Gənclər siyasəti; Elm və təhsil; Media; Yeni il təbrikləri; Azərtac təqdim edir; Böyük siyasətə qayıdış yarımbölmələrində qruplaşdırılmışdır. Materiallar tammətnlə verilmişdir. "Dünya mətbuatı Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin səfərləri haqqında" bölməsində Heydər Əliyevin ABŞ-a səfəri barədə Amerika mətbuatında çap olunan məqalələr toplanmışdır. Bu da kitabxanaçılar, siyasətçilər, tarixçilər, tədqiqatçılar, ümumiyyətlə Heydər Əliyev irsini öyrənənlər üçün çox böyük informasiya toplusudur.

**Azərbaycan Respublikasının Milli Məclisi**

http://www.meclis.gov.az/muzey/About.html

Azərbaycan Respublikasının Milli Məclisinin saytında Heydər Əliyev Xatirə Zalı bölməsi verilmişdir. Xatirə Zalında ümummilli liderimizin zəngin həyat yolunu, siyasi və dövlətçilik fəaliyyətini əks etdirən çoxsaylı eksponatlar toplanmışdır. Bunlar haqqında məlumatlar aşağıdakı linklərdə qruplaşdırılmışdır:

- Muzey haqqında
- Stendlər
- Heydər Əliyev və Azərbaycan Parlamenti
- Sənədlər : Bu bölmədə Heydər Əliyevin rəhbərliyi altında Milli Məclisdə qəbul edilmiş tarixi sənədlər yerləşdirilmişdir.
- Fəxri qonaqlar.

**Azərbaycan Milli Kitabxanası**

http://www.anl.az

Azərbaycanın baş kitabxanası nəinki Qafqazda, yerləşdiyimiz Avropa qitəsində, eləcə də bütün dünyada şöhrət tapan ən böyük milli kitabxanalardan və ən iri kitabsaxlayıcılardan biridir.

2003-cü ildən kitabxanada avtomatlaşdırılmış idarəetmə sisteminin tətbiqinə başlanılmışdır. Sistemin proqram təminatı ABŞ-ın VTLS-kitabxanalar üçün xüsusi avtomatlaşdırılmış proqramlar işləyən təşkilatlar tərəfindən həyata keçirilmişdir. Buraya elektron kataloqun tərtibi, elektron kitabxananın təşkili, oxucuların qeydiyyatı, kitab verilişi, kitab fondunun komplektləşdirilməsi, Milli biblioqrafiyanın və respublikanın bütün iri kitabxanalarının toplu kataloqunun yaradılması, yəni bütün kitabxana proseslərinin avtomatlaşdırılması modulları daxildir. Artıq avtomatlaşdırma işinə kitabxananın ən vacib sahəsi olan elektron kataloqunun tərtibindən başlanılmışdır və bu günə kimi milli ədəbiyyata dair təsvir məlumat bazasına daxil edilir.

Kitabxananın elektron kataloqundan isrtifadə edənlər sadə və ya geniş axtarış sistemindən istifadə edərək Heydər Əliyevin əsərlərini müəlliflə, haqqında olan ədəbiyyatı isə predmet, sərlövhə və ya açar sözlə axtarıb tapa bilərlər. Burada istifadəçilər ümummilli liderin çapdan çıxan əsərləri və haqqında çapdan çıxmış kitabların, məqalələrin, dissertasiya və s. ədəbiyyatın təsviri və tammətnindən istifadə edə bilərlər.

Milli Kitabxananın ana səhifəsinin sağ tərəfində Elektron məlumat bazası kateqoriyası verilmişdir. Bu linkdə "**HEYDƏR ƏLİYEV MƏDƏNİYYƏTİMİZİN HAMİSİ**" adlı elektron məlumat bazası yerləşdirilmişdir. Bazadakı ana səhifədə məlumatlar aşağıdakı bölmələrə üzrə qruplaşdırılmışdır:

- **Prezidentin sərəncamı**
- **Azərbaycan xalqının ümummilli lideri**
- **Heydər Əliyev Milli Kitabxanada**
- **Mədəniyyətimizin inkişafının Heydər Əliyev mərhələsi**
- **Heydər Əliyev surəti bədii ədəbiyyat və incəsənətdə**
- **Xatirəsinin əbədiləşdirilməsi**
- **Fotoqalereya**

**"Prezidentin Sərəncamı"** bölməsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında "2013-cü il 21 yanvarda imzaladığı Sərəncam verilmişdir.

**"Azərbaycan xalqının ümummilli lideri"** kateqoriyasında
Həyat və fəaliyyəti
Görkəmli şəxslər Heydər Əliyev haqqında
Əsərləri
Müdrik kəlamları
Haqqında
Təltifləri
- bölmələri verilmişdir. Bu bölmələr özləri də ayrı-ayrı yarımbölmələrə ayrılmışdır. Məsələn,
"Həyat və fəaliyyəti" bölməsində aşağıdakı yarımbölmələr verilmişdir:
-Bioqrafiyası
-Hakimiyyət illərində:
- 1969-1982 - Azərbaycan KP MK-nın birinci katibi
- 1993-1998 - I Prezidentlik dövrü
- 1998-2003 - II Prezidentlik dövrü
Həyat və fəaliyyətinin əsas tarixləri verilmişdir.

"Əsərləri" bölməsində Heydər Əliyevin 65 kitabının tammətnli elektron resursu verilmişdir. "Müdrik kəlamları" linkində ümummilli liderin dahiyanə kəlamları toplanmışdır.

"Haqqında" bölməsində Heydər Əliyevin həyat və yaradıcılığı haqqında kitablar, məqalələr, musiqi əsərləri və dissertasiyalar tammətnlə verilmişdir.

**"Heydər Əliyev Milli Kitabxanada"** linki - Nitqlər; Videogörüntülər; Fotoalbomlar –kateqoriyasına ayrılmışdır. Burada Heydər Əliyevin "Vətənə, Dövlətə, Xalqa sədaqət andı" miniatür kitabının təqdimat-sərgisində çıxış (3 iyun 1995-ci il); İsraildə yaşayan keçmiş Azərbaycan Vətəndaşları Assosiasiyasının təşəbbüsü ilə hazırlanmış və çapdan çıxmış "HEYDƏR ƏLİYEV: siyasi portretin cizgiləri" kitabının təqdimatı mərasimində nitq (4 mart 1996-cı il); M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasında "Azərbaycan Qaçqınları" fotoalbomunun təqdimatı mərasimində nitq (5 noyabr 1997-ci il); - Amerikada nəşr edilən "AZƏRBAYCAN İNTERNƏŞNL" jurnalının beş illiyinə həsr olunmuş mərasimdə nitq (20 noyabr 1997-ci il) təqdim olunmuşdur.

**Fotoalbom; Video görüntülər** bölməsində Heydər Əliyevin M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasında 5 mart 1996–cı il tarixində keçirilmiş İsraildə çapdan çıxan "Heydər Əliyev: siyasi portretin cizgiləri" kitabının təqdimat mərasimində, 5 noyabr 1997-ci il tarixində keçirilmiş "Azərbaycan qaçqınları" fotoalbomunun təqdimat mərasimində və 20 noyabr 1997-ci il tarixində keçirilmiş "Qlobal üfüqlər" kitabının təqdimatı və Amerikada nəşr edilən "Azərbaycan interneşnl" jurnalının 5 illiyinə həsr olunmuş mərasimində iştirakı zamanı çəkilmiş Videogörüntülər və fotoşəkillər nümayiş edilir.

**“Mədəniyyətimizin inkişafının Heydər Əliyev mərhələsi”** - linkində fərman və sərəncamları;
çıxışlar, məruzələr, nitqlər, təbriklər;
H.Əliyevlə bağlı mətbuatda çıxan mədəniyyət xəbərləri,
Kitablar, videogörüntülər və fotoalbom öz əksini tapmışdır.
**“Heydər Əliyev surəti bədii ədəbiyyat və incəsənətdə”** - linki
Heydər Əliyevə ithaf olunmuş musiqilər;
Heydər Əliyev bədii ədəbiyyatda – və
Filmlər yerləşdirilmişdir.
XATİRƏSİNİN ƏBƏDİLƏŞDİRİLMƏSİ bölməsində:
Rəsmi sənədlər; Orden, medal və mükafatlar; Xatirə sikkələri; Heydər Əliyev filateliyada (markalar); Heydər Əliyev Fondu; Heydər Əliyev Mərkəzi; Heydər Əliyev adına Saray; Heydər Əliyev Beynəlxalq Hava Limanı, Heydər Əliyevin Xatirə muzeyləri, Parklar və abidələr, Xatirəsinə ithaf edilmiş möhtəşəm xalça haqqında geniş məlumatlar toplanmışdır.
**Fotoqalereya** – linkində isə:
Ailə albomu
Heydər Əliyev Milli Kitabxanada
Heydər Əliyev və mədəniyyətimiz
Ulu öndər Heydər Əliyev
Ulu öndərin abidələri
Heydər Əliyevə ithaf olunmuş kitablar - ın şəkilləri öz əksini tapmışdır.

Kitabxananın **Elektron kitabxana -** linkində açılan pəncərədə axtardığımız məlumatı elm sahələri üzrə, müəllif və sərlövhələrin baş hərfinə əsasən tapmaq olar məsələn, Əliyev H. – “Ə” - hərfində tapmaq olar. Siyahıda istənilən ədəbiyyatı seçib üstündən vurarkən kitabın tammətninin elektron versiyası açılır.

Burada Heydər Əliyev: Biblioqrafik məlumat kitabı; Heydər Əliyev dil haqqında və Heydər Əliyevin dili; Əliyev Heydər. Müdrik fikirlər; Əliyev Heydər. Müstəqilliyimiz əbədidir; Heydər Əliyev dünyanın gözü ilə; Heydər Əliyev Fondu; Heydər Əliyev və mədəniyyət: 3-cilddə; Heydər Əliyev və Şərq kitabları və s. ədəbiyyat istifadəçilərin ixtiyarına verilmişdir.

Azərbaycan Milli Kitabxanasının saytında Heydər Əliyev haqqında yerləşdirilən bu informasiyalar öz əhatə dairəsinə görə, məlumatların tammətnli olmasını nəzərə alaraq ən böyük və geniş məzmunlu sayt hesab oluna bilər.

**VİKİPEDİYA**

https://az.wikipedia.org/wiki/Heyd%C9%99r_%C6%8Fliyev

**Heydər Əliyev -** pəncərəsində ümummilli liderin həyat və yaradıcılığı haqqında geniş məlumat verilmişdir:

1.Həyatı
2.Mükafatları, təltifləri və fəxri adları
2.1.SSRİ dövrü
2.2.Müstəqillik dövrü
3.Fotoşəkilləri
3.1.Filateliyada
4.Heydər Əliyevin heykəl və büstləri
5.“Heydər Əliyev” ordeni
6.Xatirə sikkələri
7.Həmçinin bax
8.Mənbə
9.İstinadlar
10.Xarici keçidlər

**Həyatı** – linkində Heydər Əliyevin həyat və fəaliyyəti barədə geniş məlumatlar verilmişdir.

**Mükafatları, təltifləri və fəxri adları – kateqoriyasında Heydər Əliyevin** bir sıra beynəlxalq mükafatları, müxtəlif ölkələrin universitetlərinin fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülməsi haqqında məlumat verilmişdir. O, dörd dəfə “Lenin” ordeni, “Qırmızı Ulduz” ordeni və çoxlu medallarla təltif edilmiş, iki dəfə “Sosialist Əməyi Qəhrəmanı” adını almış, bir çox xarici dövlətlərin orden və medalları ilə təltif olunmuşdur:

Foto şəkilləri – kateqoriyasında Heydər Əliyevin şəkilləri, Heydər Əliyev filateliyada – kateqoriyasında poçt markaları, Heydər Əliyevin heykəl və büstləri – kateqoriyasında ümummilli liderin nəinki Azərbaycanda, hətta xarici ölkələrdə qoyulmuş heykəl və büstləri barədə məlumat verilmişdir, bəzilərinin isə şəkilləri də əks edilmişdir.

“Heydər Əliyev” ordeni – kateqoriyasında Azərbaycan Respublikasının 22 aprel 2005-ci il tarixli, 896-IIQ nömrəli Qanunu ilə təsis edilməsi barədə, Xatirə sikkələri – kateqoriyasında isə sikkələrin şəkilləri verilmişdir.

Elektron saytlardakı linklər daim yenilənir, aktiv və tammətnlidir. Bu isə oxucunun ümummilli lider Heydər Əliyevin siyasi irsinin öyrənilməsində, təbliğində, az vaxt ərzində yeni informasiyalardan çox rahat istifadəsinə şərait yaradır.

Heydər Əliyev haqqında əlavə məlumat əldə etmək istəyənlər aşağıdakı saytları izləməsini də məqsədəuyğun hesab edirik.

http://aliyev-museum.nakhchivan.az/bann/linkler.html-Heydər Əliyev Muzeyi. Naxçıvan
http://www.nakhchivan.az - Naxçıvan Muxtar Respublikasının portalı
http://shexsiyyetler.nakhchivan.az - Naxçıvanın görkəmli şəxsiyyətləri

http://www.1990-1993.nakhchivan.az - Heydər Əliyev. Böyük ömrün 3 ili
https://menazerbaycanliyam.wordpress.com/about/- Mən azərbaycanlıyam

**Ədəbiyyat**

1. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 21 yanvar 2013-ci il /İ.Əliyev //Azərbaycan, 2013, 22 yanvar, s.1
2. Богза Н.Ф. Создание электронных библиографических указателей – перспективное направление раскрытия краеведческих фондов //Библиотеки и ассоциации в меняющемся мире: новые технологии и новые формы сотрудничества. Труды конф. Т.2. М.: ГПНТБ России, 2000, с.238–240
3. Панкова Е.В. Электронное библиографическое пособие. Правила создания: практич. руководство для библ. работников / Е.В.Панкова, Л.С.Беркутова. М.: Форум, 2008, 128с.

## Интерпретация электронных ресурсов о общенационального лидера Гейдара Алиева, которые используются в интернете

М.А.Валиева

### РЕЗЮМЕ

*В статье анализируются электронные ресурсы в сайтах, посвященные жизни и творчеству общенационального лидера Гейдара Алиева: Президентская Библиотека при Управлении Делами Президента Азербайджанской Республики, Фонд Гейдара Алиева,Центр Исследований наследия Гейдара Алиева, Милли Меджлис Азербайджанской Республики, Национальная Библиотека Азербайджана.*

## Interpretation of the electronic resources about the national leader Heydar Aliyev that are used on the internet

M.A.Valiyeva

### SUMMARY

*Electronic resources on the websites of Presidential Library of Administrative Department of Azerbaijani President, Heydar Aliyev Foundation, Heydar Aliyev's Heritage Research Center, the National Assembly of the Republic of Azerbaijan, Azerbaijan National Library about the life and work of the national leader af Azerbaijani, Heydar Aliyev have analyzed in the Article.*